AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU

NADİR MƏMMƏDLİ

- 31414 -

# HEYDƏR ƏLİYEVİN DİLÇİLİK GÖRÜŞLƏRİ

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Elm və təhsil"
BAKI - 2023

63.3(5Az)6-6 +81.2 Az
M51

**Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 19 iyun 2023-cü il tarixli iclasının qərarına əsasən (protokol №4) çapa təqdim olunmuşdur.**

Redaktor: **Rüfət Rüstəmov**
*filologiya elmləri doktoru, professor*

Rəyçi: **Tofiq Hacıyev**
*filologiya elmləri doktoru, professor*

**Nadir Məmmədli.**
Heydər Əliyevin dilçilik görüşləri.
Bakı, "Elm və təhsil", 2023, 188 səh.

*Kitabda azərbaycançılıq ideologiyası, məfkurəsinin banisi, dahi dövlət xadimi Heydər Əliyevin Azərbaycan dili və dilçiliyinin inkişafında tarixi xidmətləri, bütün sahələrdə mövcud olan problemləri (dil quruculuğu, ortaq əlifba və s.), dil siyasətinin prioritet istiqamətləri, vətən anlayışının konsept səviyyəsində, dilçiliyin yeni istiqaməti olan koqnitiv dilçilik baxımından elmi cəhətdən araşdırılır, qarşısında duran əsas məsələlər təhlil süzgəcindən keçirilir.*

*Heydər Əliyevin 100 illiyinə töhfə olan bu kitab inanırıq ki, daim aktuallığını qoruyub saxlayacaq.*

ISBN: 978-9952-568-35-6

© Məmmədli, 2023

# ÖN SÖZ

## HEYDƏR ƏLİYEV:
## TARİXİ REALLIQLAR VƏ DİL SİYASƏTİNİN UĞURLARI

Tarix boyu xalqımızın dünya irsinə bəxş etdiyi şəxsiyyətlər Azərbaycan dilinin keşiyində dayanmağı, onu müdafiə etməyi özlərinin ən şərəfli vəzifəsi hesab etmişlər. Bu sırada Heydər Əliyevin əvəzsiz xidmətləri həmişə görünmüş və görünməkdədir.

Bu böyük şəxsiyyətin dilimizə olan sevgisi fəaliyyətinin bütün dövrlərinə aid edilə bilər. 18 iyun 2001-ci il tarixli Fərmanında deyilir: "Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun müqəddəs vətəndaşlıq borcudur."

Azərbaycançılığın ümummililli iedeologiya halına gəlməsi, bütün dünya azərbaycanlılarını birləşdirən məfkurəyə çevrilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın adət-ənənələrini, milli-mənəvi dəyərlərini, mədəni zənginliyini qoruyub-saxlayan baxışlar sistemi kimi azərbaycançılıq ideyasının təşəkkül tapmasında Ulu Öndərin misilsiz xidməti vardır.

Ulu Öndər Azərbaycan ictimaiyyətini daha çox düşündürən vacib məsələləri böyük uğurla qaydasına salmağın yollarını mükəmməl bilirdi. Bu dahi şəxsiyyət bütün varlığı ilə canından əziz bildiyi xalqının xoş gələcəyi yolunda inamla bilik və bacarığından istifadə etmişdir. Azərbaycan xalqının nurlu gələcəyi üçün zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxması üçün bilik və bacarığını əsirgəməmiş, bütün çətinliklərə sinə gərmişdir Bu nadir şəxsiyyətin ömür yolu haqqında yazılan saysız-hesabsız əsərlər yüzilliklər boyu aktuallığını qoruyub saxlayacaqdır. Bu mənada, AMEA Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru görkəmli alim, professor Nadir Məmmədlinin qələmə aldığı "Heydər Əliyevin dilçilik görüşləri" adlı kitabı zamanın tələbinə cavab verən son dərəcə qiymətli bir əsərdir.

Müəllif haqlı olaraq qeyd edir ki, Heydər Əliyevin yaratdığı həyat məktəbi vətəni, onun torpağını ilahi bir məhəbbətlə sevmək, onun qədrini bilmək,

ana vətənimizin mənafeyini müdafiə etmək, sosial ədalət prinsiplərini yaşatmaq məqsədi güdür. Çox böyük məsuliyyət tələb edən bu əsərdə müəllif Ulu Öndərimizin dil haqqında söylədiyi bir fikri oxucuların nəzərinə çatdırmağı özünə borc bilmişdir: *"Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də gərək hər bir gənc öz ana dilini, Azərbaycan dilini ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik."*

Azərbaycanın içtimai-siyasi həyatında olduqca önəmli rol oynamış tarixi bir şəxsiyyətin, daha ifadəli desək, müasir Azərbaycanın qurucusu və yaradıcısı Heydər Əliyev təkcə bir dövlət rəhbəri deyil, ona görə də müəllif həm də onun milli lider olduğunu diqqətə çatdırmışdır. Çox düzgün qeyd edir ki, ana dilimiz haqqında hər bir oxucunun informasiya tələbatını ödəmək üçün Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dili haqqında söylədiyi müdrik kəlamlara hörmətlə yanaşırıq. O, Azərbaycan dilini milli mənliyin əsas prioriteti kimi daim diqqət mərkəzində saxlamışdır. Dahi şəxsiyyət 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə keçirilən toplantıda, daha sonralar başqa respublika tədbirlərində azərbaycanca danışmaqdan çəkinməmiş, dövlət

struktur nümayəndələrinə öz şəxsində nümunə göstərmişdir. Ən yaxın tariximizə nəzər yetirəndə belə aydın görünür ki, doğma dilinə xor baxıb, onu bəyənməyən, bu dildə iki-üç kəlməni belə dalbadal düzə bilməyən, yaxud bu dildə ünsüyyət qurmağı özlərinə eyib bilənlərin cavablarını Heydər Əliyev necə verdi?! O, ölkədə milli dil mühitini yaratdı! Əslində, bu Heydər Əliyevin uzun illər apardığı ciddi və çətin mübarizəsinin damla-damla qazanılan bəhrəsi idi. Azərbaycanda sovet dövrünün əvvəllərində qadağan edilən, "qara siyahı"ya salınan türkologiya elmi ötən əsrin 70-ci illərində sürətli inkişaf dövrünə qədəm qoydu, Bakı dünya türkologiya elminin mərkəzinə çevrildi. Təsadüfü deyildir ki, Sovet İttifaqında nəşr olunan yeganə "Türkologiya" jurnalı Azərbaycanda işıq üzü görürdü. Bu, Heydər Əliyevin xidmətlərindən idi. Məlumat üçün qeyd etmək istəyirəm ki, "Türkologiya" jurnalı hal-hazırda Nəsimi adına Dilçilik İnstitutunun Baş direktoru professor Nadir Məmmədlinin rəhbərliyi ilə yenə də nəfis şəkildə nəşr olunmaqdadır.

Müəllif qeyd edir ki, XX və XXI yüzilliklər Azərbaycan ədəbi dilinin ən sürətli tərəqqisi və çiçəklənməsi dövrüdür. İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları var-

dır. Bunları deməkdə əsas məqsədimiz ana dilinin hərtərəfli saflığının qorunması, Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda dahi şəxsiyyət Heydər Əliyevin başladığı müqəddəs milli mücadilənin tarixinin uzun müddət davam etməsini vurğulamaqdır. Xalqımızın milli sərvəti sayılan ana dilimizin hər tərəfli inkişafı rəsmi sənədlərdə deyil, gündəlik həyatda ümumişlək dilə, dövlət dilinə çevrilməsidir.

Çox rəvan bir dildə yazılmış Nadir Məmmədlinin bu əsərini professor Heydər Əliyevin dil siyasətinə həsr olunmuş yeni və dəyərli bir nüminə hesab edə bilərik. Əsərdə Ulu Öndərin təkcə Azərbaycan dilinə və tarixi mədəniyyətinə məhəbbətini yox, həm də milli varlığımıza, vətən torpağının hər qarışına, keçmişimizə və sadaladıqca bitmək bilməyın müqəddəs dəyərlərimizə ülvi məhəbbətini görməkdəyik. Azərbaycan dili XVI əsrdə Səfəvilər hakimiyyəti dövründə dövlət dili səviyyəsinə qalxsa da, milli dövlətçiliyin itirilməsi nəticəsində həmin səviyyədə bərqərar ola bilmədi. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə Azərbaycan dilinin geniş tətbiq olunması yolunda böyük imkanlar açıldı. 1978-ci ildə Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil ediləndə, Moskvadan başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Məsələnin ciddiliyini nəzərə

alan Ümummilli Lider xalqın və dövlətin adı ilə bağlı müzakirələr keçirdi, 12 noyabr 1995-ci ildə referendum yolu ilə xalq öz mövqeyini və Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olma sı tərəfdar olduğunu bildirdi. Ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, cəmiyyətdəki mövqeləri bərpa edildi. Bunlar mükəmməl bir şəkildə əsərdə əsaslandırılır, göstərilir və təsdiq edilir.

Müstəqil Azərbaycan dövlətinin əsas ideyasının azərbaycançılıq olduğunu bütün çıxış və nitqlərində göstərən Heydər Əliyev Azərbaycan Xalq Cümhu¬riyyətinin ideoloji ənənələrinə böyük dəyər verdiyini dəfələrlə təsdiqləyir və AXC dövrünü Azərbaycanın şanlı tarixi kimi dəyərləndirir. Ulu Öndər onu da unutmur ki, yüz il əvvəl ortaya qoyulan bu ideya yeni dövrün tələblərinə uyğunlaşdırılmalıdır.

Bütün türk dünyasına canı-qanı ilə bağlı olan və "Bir millət, iki dövlət" şüarı ilə Azərbaycan – Türkiyə birliyinin sarsılmazlığını isbatlayan Ulu Öndər xalqımızın dilinin Azərbaycan dili olduğunu elə dəyərli və lazımı faktlarla izah etdi ki, bunun qanunauyğunluğunun izahına ehtiyac qalmadı.

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm..." – bu müdrik sözlərin müəllifi Heydər Əliyevdir.

O, siyasi uzaqgörənliyi və qabaqlayıcı tədbirləri ilə xalqla, onun həm zəhmətkeş, həm də ziyalı təbəqəsi ilə doğma ana dilində, çox sadə və anlaşıqlı dildə danışmaqla təkcə özünü xalqa sevdirmədi, eyni zamanda dövlətlə xalq arasında elə bir körpü yaratdı ki, bu az bir zaman kəsiyində hiss olunacaq hadisəyə çevrildi. Heç şübhəsiz ki, zahirən çox sadə görünən, amma uzaqgörən bu addımlar Heydər Əliyevin milli dil siyasətinin ilk müjdələri idi. Əslində, bir az da geniş baxanda, bu dövr yeni bir azərbaycançılıq təsəvvürünün yarandığı tarixdir. Dahi rəhbərimiz Heydər Əliyev Azərbaycan dilinə həmişə yüksək səviyyədə diqqət yetirib. Siyasətşünaslıqda Azərbaycan tarixinin ən yeni – milli dil siyasətinin həyata keçirildiyi dövr məhz "Heydər Əliyev dövrü" kimi xarakterizə olunur.

Bu kitab dilimizin qədimliyinə obyektiv yanaşması ilə seçilən, onun elmi-tarixi qiymətini dürüstlüyü ilə əsaslandıran, eyni zamanda, Azərbaycan dilinin türk köklü, amma müstəqil dil olmasının elmi əsaslarını və inkişaf mərhələlərini təsdiqləyən bir fundamental tarixi əsərdir. Cəsarətlə demək lazımdır ki, Ulu Öndərin dil siyasətinin uğurlarının miqyası çox genişdir. Azərbaycan çox-çox uzaqlarda yaşayan bütün azərbaycanlılara, 50 milyonluq Azərbaycan xalqına güvənc və qürur yeridir. Əsərdə doğru olaraq göstərilir ki, Azərbaycan dilinin

dövlət dili kimi inkişafı uğrunda Heydər Əliyevin mübarizəsinin əsas bir hissəsi bununla bağlı olmuşdur. Bu Azərbaycan dilinin beynəlxalq miqyasının genişlənməsində və nüfuzunun yüksəlməsində xüsusi önəm daşımaqla, həm də Ümummilli Liderin nə qədər geniş bir məkanda xidmətlərinin təsdiqidir. Müəllif qeyd edir ki, Azərbaycanımızı bütün dünyada böyük uğurla təmsil edən Ulu Öndərin gördüyü işlər xalqımızın xoş gələcəyi, firavan yaşaması üçün nəzərdə tutulmuşdur. Biz bütün dünyaya nümayiş etdiririk ki, bəşəriyyətdə Azərbaycan xalqı var, Azərbaycan mədəniyyəti var və bu xalqın doğma ana dili – Azərtbaycan dili var!

Yeri gəlmişkən, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu ərəfəsində dövlət dilinin adının müzakirəsi məsələsinə münasibətini bildirən dövlət başçısnın fikirləri ilə tanışlıq illər sonra da maraq doğurur. Ulu Öndər qısa və lakonik bir şəkildə deyirdi:

– ümumtürk dilinin diferensiallaşması nəticəsində formalaşmış Azərbaycan türkcəsini geriyə qayıdaraq "türk dili" adlandırmaq olmaz;

– bu dil, sadəcə, "Azərbaycan dili" adlandırılmamış, XX əsrdə, yarımmüstəqil olsa da, dövlətin dili kimi inkişaf etmiş, fərqli xüsusiyyətlər qazanmış, dövlətin adını öz üzərinə götürmək səlahiyyəti əldə etmişdir;



**Hörmətli oxucu,**

**"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**